# Zəmanəmizin əsas problemlərindən biri – miqrasiya



***Miqrasiya dövrümüzün qlobal istiləşmə, COVID-19 pandemiyası və təbii kataklimzlərlə yanaşı ən böyük problemlərindən birinə çevrilib. Bu problem ölkələrə hətta qlobal maliyyə böhranları və inflyasiyalar qədər sarsıdıcı təsir edir.***

Ümumiyyətlə, tarixçilərin və arxeoloqların fikrincə, Yer üzündəki insanların böyük əksəriyyəti miqrantdır. Əlbəttə, bu fikir səbəbsiz yaranmayıb. Belə ki, bəşər övladı mənşəyini 200 min il əvvəl Afrikadan götürmüş və sonra bütün dünyaya – Avropa, Asiya, Avstraliya və Amerikaya yayılmışdır. Hazırda dünyada təxminən 200 milyon miqrant var. Böyüməkdə olan miqrasiya problemləri siyasətçilərin əsas gündəm məsələlərindən birinə çevrilib. Məşhur jurnalist Boris Altnerin də dediyi kimi, XXI əsri “miqrasiya əsri” adlandırsaq, yanılmarıq.

İnsanlar daim hərəkət edirlər. Sivilizasiyamızın bizə məlum olan tarixi boyu insan toplumları daha münbit torpaq və ya təmiz su tapmaq üçün və bir çox başqa səbəbdən bir yerdən başqa yerə köç etmişlər. Bu axtarışlar nəticəsində zamanla oturaq həyata keçən bəşər övladı əvvəlcə qəbilə-tayfa birlikləri, daha sonra dövlətlər yaratmış, olduğu yeri sahiblənib sərhədlər qurmuşdur. Yəni, əslində, miqrasiyanın dövrümüzə sirayət edən səbəbləri ilk insan toplumlarının bizə miras qoyduğu “daha rahat həyat üçün köç etmək” fəlsəfəsindən qaynaqlanır. Fərqli mədəniyyətlərin müxtəlif coğrafiyalara yayıldığı bir dövr üçünsə miqrasiya xalqlar və mentalitetlərarası zənginlik yaratsa da, problemlərə də səbəb olur. Belə ki, dövrümüzdə miqrasiya yerlilər üçün çətinlik, hətta təhdid kimi qəbul edilir. Miqrantların hüquqları tez-tez pozulur və beləliklə, insan hüquq və bərabərliyini tənzimləməyə çalışan müxtəlif mexanizmlərin işi çətinə düşür. Miqrasiyaya səbəb olan məsələlər daha əvvəl qeyd etdiyimiz – qəbilə icmasında, hələ təzə-təzə oturaq həyata keçən insan qruplarının birdən-birə öz yerlərini tərk etmək ehtiyacından çox da fərqlənmir. Bu yerdə mütəxəssislər miqrasiyanı iki əsas hissəyə bölürlər: könüllü miqrasiya və məcburi miqrasiya. Könüllü miqrasiya əsasən daha yaxşı karyera qurmaq və fərqli mədəniyyətlərə qarşı hiss edilən aidiyyəti duyğulardan qaynaqlanır. Məcburi miqrasiya isə əsasən zülm, müharibə və ya aclıq kimi hallarda insanların olduqları yeri tərk etməsidir. Ümumiyyətlə, insanlar həm iqtisadi səbəblərdən, həm də humanitar hüquqlarının pozulduğu üçün yaşayış yerlərini tərk edirlər. Xülasə, dövlət lazımi səviyyədə idarə olunmursa, iqtisadi və siyasi problemlər meydana gəlir. Bu isə öz növbəsində münaqişələrə, xaosa, bilavasitə aclıq və qanunsuzluqlara səbəb olur. Tarixə nəzər salsaq görərik ki, bu kimi hallar əksərən daxili sabitliyin pozulmasına, hətta vətəndaş qırğınlarına səbəb olur. Ümumiləşdirsək, bu kimi vəziyyətlər kütləvi şəkildə qeyri-qanuni miqrasiyaya gətirib çıxarır.

Qeyri-qanuni miqrasiya ictimai-siyasi həyatımızın bir parçasına çevrilib. Qaçqın yükü baxımından dünyada ən böyük məsuliyyəti üzərinə götürən ölkə kimi Türkiyə bu prosesdə çox fəal şəkildə iştirak edir. Qeyd edək ki, Türkiyədə 3,7 milyondan çox suriyalı miqrant var ki, onların gələcəyi ilə bağlı məsələlər hələ də müzakirə edilir. 2021-ci il oktyabrın 21-nə olan rəsmi məlumata görə Türkiyədə müvəqqəti qorunma altında yaşayan qeydiyyatdan keçmiş suriyalıların sayı 3 milyon 723 min 674 nəfərə çatıb. Bu insanların 1 milyon 764 min 863-nü yəni 47,4 faizini 18 yaşadək uşaqlar təşkil edir. Ümumiyyətlə, uşaq və qadınların cəmi isə 2 milyon 673 min 531 nəfərdir. Bu insanların 98,6 faizi şəhərlərdə yaşayır.

Türkiyədə ən çox miqrantın olduğu şəhər İstanbuldur. İstanbula yerləşən 534 mindən çox suriyalı ümumi şəhər əhalisinin 3,5 faizini təşkil edir. Qaziantep, Hatay, Şanlı Urfa, Adana və s. ən çox suriyalı miqrant olan digər şəhərlərdir. Türkiyənin Kilis şəhərində isə şəhər əhalisinin 75,1 faizini suriyalılar təşkil edir.

Müharibə, daxili qarşıdurmalar və böhran kimi səbəblərdən qaynaqlanan miqrasiya, həmin insanları qəbul edən ölkələr üçün də böyük problemlərə yol aça bilər. Bu problemlərdən ən mühümü odur ki, Türkiyə daxilində yayılmış miqrantlar yerləşdikləri şəhərlərin demoqrafik quruluşunu dəyişməyə başlayıb. Daha əvvəl qeyd edildiyi kimi, bəzi şəhərlərdə qaçqınların sayı şəhərin indiki əhalisinin sayını keçib. Qaçqınların Türkiyə vətəndaşlığına qəbulu isə ölkənin ümumi siyasi durumuna təsir göstərə bilər. Bu da gələcəkdə bir sıra problemlərin yaranmaq ehtimalını gündəmə gətirir.

Bundan əlavə, Taliban Əfqanıstanda hakimiyyətə gəldikdən sonra minlərlə insan bu ölkəni tərk edib. Bu gün Türkiyə, Pakistan və İran da daxil olmaqla, bir çox ölkələr əfqanları qəbul edir.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının rəqəmlərinə görə təxminən 2,6 milyon əfqan qaçqın həyatı yaşayır. Qeyd edək ki, bugün də onların bir çoxunun sığınacaq problemi həll edilməyib və ya tamamlanmayıb. Bu insanlar əsasən Əfqanıstanla qonşu olan ölkələrdə – İran və Pakistanda məskunlaşıblar. Bu ölkələrdən sonra Almaniya ən çox əfqan qaçqını qəbul edən ölkədir. Belə ki, əfqan qaçqınların 148 min nəfəri – ümumi rəqəmin 5,5 faizi Almaniyadadır. Avstriya, Fransa və İsveç əfqanların Avropadakı digər istiqamətləri sırasındadır. Avropa İttifaqının son hesabatına görə, 2021-ci ilin birinci rübündə 7 minə yaxın əfqana Aİ-də daimi və ya müvəqqəti hüquqi status verilib. Onlardan 2200-ü Yunanıstanda, 1800-ü Fransada, 1000-i Almaniyada, 700-ə yaxını İtaliyadadır.

Yeri gəlmişkən qeyd edək ki, bugünlərdə Belarus–Polşa sərhədində əfqan mühacirlərlə bağlı insidentlər yaşanır. Belə ki, İraqdan Belarusa viza ilə gələn və Avropaya mühacirət etmək üçün bu ölkədən Polşaya keçməyə çalışan insanlar Belarus–Polşa sərhədində düşərgə qurublar. Bruzgi-Kuznitsa sərhəd-keçid məntəqəsində Polşa sərhədi qarşısında uşaq və qadınların da olduğu 2 minə yaxın insan toplaşıb. Kuznitsa sərhəd qapısında kilometrlərlə yük maşınları növbələri yaranıb. Polşa təhlükəsizlik qüvvələri tikanlı məftillərin döşəndiyi sərhəd keçidində sıx tədbir görüblər. Belarus Dövlət Sərhəd Komitəsindən verilən açıqlamada, sərhəddəki mühacirlərdən əlavə yeni qrupların gəldiyi, immiqrantların 2 min 100 nəfərə çatdığı bildirilib.

*İmran ƏLİYEV,*
*“Xalq qəzeti”*